yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur










2 ATALAR VƏ OĞULLAR VƏ YA AĞIL YAŞDA DEYİL, BAŞDADI
3 TƏHSİL VƏ HƏYATIMIZDAKI YERİ
4 BƏLİ, BİZƏ QƏZET LAZIMDIR
6 TBİLİSİ AZƏRBAYCAN TEATRINDA NƏ BAŞ VERİR?

HAQQIN SÖZÜ - SÖZÜN HAQQI

# Yeni YOL

30 SENTYABR 2018-Cİ İL

№015 (74)

## GÜRCÜSTANDA KEÇİRİLƏCƏK PREZİDENT SEÇKİLƏRİNDƏ 25 NAMİZƏD MÜBARİZƏ APARACAQ




Mərkəzi Seçki Komissiyasında (MSK) 28 oktyabrda keçiriləcək prezident seçkiləri üçün namizədlərin qeydiyyat prosesi başa çatıb.

Gürcüstan prezidenti seçkilərində 25 namizəd iştirak edəcək. Onlardan 19-u siyasi partiyalar, 6-sı isə təşəbbüs qrupu tərəfindən təqdim olunub.

MSK-da baş tutan brifinqdə MSK-nın rəhbəri Ana Mikeladze bildirib ki, qanunvericiliyə əsasən, namizədin seçkiyə ən az 12 gün qalmış (16 oktyabr daxil olmaqla) yazılı ərizə ilə MSK-ya müraciət etmək və namizədliyini çıxarmaq hüququ var. Əks halda onların adları seçki bülletenlərində qeyd olunacaq.

MSK-nın məlumatına görə, cəmi 46 ərizə təqdim olunubmuş. Onun 20-si siyasi partiya, 26-sı isə təşəbbüs qrupu tərəfindən təqdim olunubmuş. MSK müxtəlif qanun pozuntusuna yer verdiyi üçün 21 nəfərin namizədliyini təsdiq etməyib.

Prezidentliyə namizədlər:

1. Ədalətin Bərpası Birliyi – Xalqın Səsi – Mixeil Saluaşvili – N28;
2. Gürcüstan Partiyası – Giorgi Liluaşvili – N17;
3. Vətəndaş platforması – Yeni Gürcüstan – Zviad Bağdavadze – N27;
4. Xristian Demokratlar Hərəkatı – Vaxtanq Qabunia – N4;
5. Yeni Xristian-Demokratlar – Levan Çxeidze – N40;
6. Gürcüstanın Leyboristlər Partiyası – Şalva Nateləşvili – N10;
7. Təşəbbüs qrupu – Kaxaber Cicinadze – N58;
8. Avropa Gürcüstanı – Azadlıq üçün hərəkat – Davit Bakradze – N2;
9. Milli-Demokratik Partiya – Zviad İaşvili – N30;
10. Azad Demokratlar – David Usupaşvili – N25;
11. Azad Gürcüstan – Kaxa Kukava – N21;
12. Gürcüstan Veteranlarının və Vətənpərvərlərinin Gücü siyasi hərəkatı – Qela Xutsişvili – N35;
13. Təşəbbüs qrupu – Salome Zurabişvili – N48;
14. Gürcüstanın Xristian-Konservantlar Partiyası – Zviad Mexatişvili – N13.
15. Təşəbbüs qrupu – Teymuraz Şaşiaşvili – N65;
16. Azadlıq siyasi hərəkatı – Zviad Qamsaxurdiyanın yolu – Tamari Tsxoraqauli – N31;
17. Gürcü Ənənəçiləri Birliyi – Akaki Asatiani – N18;
18. Təşəbbüs qrupu – Besarion Tediaşvili – N49;
19. Yeni siyasi mərkəz Qirçi – Zurab Caparidze – N36;
20. Təşəbbüs qrupu – Vladimer Nonikaşvili – N62;
21. Azad Gürcüstan üçün hərəkatı – İrakli Qorqadze – N23;
22. Vahid Milli Hərəkat Partiyası – Qriqol Vaşadze – N5;
23. Hakimiyyət xalq üçün hərəkatı – Mixeil Antadze – N1;
24. Təşəbbüs qrupu – Giorgi Andriadze – N51;
25. Sənayeçilik Gürcüstanı xilas edəcək – Otar Meunarqia – N22;

## GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRİ TÜRKİYƏLİ HƏMKARI MÖVLUD ÇAVUŞOĞLU İLƏ GÖRÜŞÜB

Gürcüstanın xarici işlər naziri David Zalkaliani Nyu-Yorkda türkiyəli həmkarı Mövlüd Çavuşoğlu ilə görüşüb. Bu barədə Gürcüstanın Xarici İşlər Nazirliyi məlumat yayıb.

Məlumatda bildirilib ki, görüşdə tərəflər Gürcüstan və Türkiyə arasında olan strateji tərəfdaşlıq və müxtəlif sahələrdə uğurlu əməkdaşlıq məsələlərini nəzərdən keçiriblər.

XİN rəhbərləri hər iki ölkənin iştirakı ilə həyata keçirilən beynəlxalq tranzit və enerji layihələrinə də toxunublar. Bu kontekstdə Cənub Qaz Dəhlizi və Bakı-Tbilisi-Qars layihələrinin əhəmiyyəti vurğulanıb. D.Zalkaliani Gürcüstan tərəfinin TANAP layihəsinin açılmasını alqışladığını qeyd edib.



M.Çavuşoğlu bildirib ki, Ankara Gürcüstanı ikitərəfli münasibətlər və beynəlxalq formatlarda dəstəkləməyə davam edəcək.

Tərəflər Gürcüstan və Türkiyə arasında Strateji Əməkdaşlıq Şurasının əhəmiyyətini də qeyd edərək, şuranın Ankarada keçiriləcək növbəti toplantısına hazırlıq ifadə ediblər.

## XARİCDƏ YAŞAYAN GÜRCÜSTAN VƏTƏNDAŞLARININ SEÇKİDƏ İŞTİRAK ETMƏSİ QAYDALARI HAQQINDA MSK MƏLUMAT YAYIMLAYIB



Mərkəzi Seçki Komissiyasının (MSK) mətbuat katibi Ana Mikeladzenin bildirdiyinə əsasən, Gürcüstanın qüvvədə olan qanunvericiliyinə əsasən, prezident seçkilərində iştirak etmək üçün xaricdə yaşayan Gürcüstan vətəndaşları Gürcüstan konsulluğunda və ya xaricdəki ünvanda qeydiyyatda olmalıdırlar. Qeydiyyatda olmadıqları halda onlar 2018-ci ilin 7 oktyabr tarixinə qədər Gürcüstanın müvafiq diplomatik nümayəndəliyində qeydiyyata düşməlidirlər. Konsulluqda qeydiyyata düşmək pulsuzdur. Qeyd edək ki, vətəndaşlar bu proseduru konsulluğun veb-səhifəsi – "geoconsul.gov.ge" vasitəsilə elektron şəkildə də keçə bilərlər.

"Xaricdə yerləşdirilmiş seçki qutusuna gəldikdə isə Gürcüstan Xarici İşlər Nazirliyinin verdiyi məlumata görə, təqribən 40 ölkədə seçki məntəqəsinin açılması planlaşdırılır. Qanunvericiliyə əsasən, xaricdə seçki məntəqələri 28 sentyabra qədər açılacaq və onların ünvanları dərhal MSK-nın veb-səhifəsində qeyd ediləcək. Məntəqə seçki komissiyaları işə başladıqdan sonra xaricdə yaşayan seçicilər seçki məntəqələrinə gedə və seçki üçün qeydiyyatdan keçə bilərlər.

Xaricdə olan Gürcüstan vətəndaşları onlayn çat vasitəsilə seçkiyə dair hər hansı məsələ ilə bağlı MSK-ya müraciət edə bilərlər və ya məlumat mərkəzi ilə telefon vasitəsi ilə əlaqə saxlaya bilərlər: +599 32 2 51 00 51", - deyə Ana Mikeladze bildirib.



# ATALAR VƏ OĞULLAR VƏ YA AĞIL YAŞDA DEYİL, BAŞDADI

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

**Qora bişirən avqustda ayaqlarını Qara dənizin ılıq sularına soxub, kürəyini Urekinin qumlu, Batuminin çınqıllı sahillərinə uzadıb, başını Borjominin meşəliklərində tənbəl-tənbəl kölgələyib mürgü vuran ölkə sentyabr gələn kimi həm məktəblərin ilk zəng səsinə, həm də oktyabrın 28-i keçiriləcək prezident seçkilərinin televiziyalardakı səs-küyünə səksənib ayağa durdu sanki.**

Yeni tədris ili yeniliklərlə başlasa da Azərbaycan məktəblərində problemlər yenə də köhnə olaraq qalır, hətta köhnə yerinə qədim problemlər yazsam şişirtmiş olmaram yəqin ki. Bu, istər kənd məktəblərinin hələ də təmirsiz qalması, istər dərsliklərlə bağlı, istərsə də kadr çatışmamazlığı ilə bağlı problemlərdir. Sonuncu o qədər ağrılı yerimizdir ki, bu haqda çox yazılsa da, danışılsa da, göstərilsə də yenə azdır və yenə heç bir nəticə yoxdur. Sanki hər şey elə beləcə də olmalı, öz axarı ilə getməlidir. Necə deyərlər, nəticəni yaşayarıq görərik. Amma bunun məktəblərimiz üçün bağlanmaq təhlükəsinə tərəf addım-addım irəlilədiyini də yaxşı bilirik. Bilirik və hələ ki, heç kəs ayağa durub bu addımı atan ayaqları sındırmaq istəmir, ya bacarmır, bilmirəm. Onu bilirəm ki, bir neçə ilə indi müəllim stulunda ağır-ağır oturub, müəllim stolundan ikiəlli möhkəm yapışan yaşlı müəllimlər nə qədər ki, gənclərə məktəblərdə yer verməyəcəklər, özlərindən sonra o yerlərdə boşluq qalacaq, təkcə fiziki boşluq deyil, həm də bu sözün lap müasir rus yazıçısı Viktor Pelevinin "Çapayev və Boşluq" romanındakı boşluq mənasındakı boşluq qalacaq.

Bunu özümdən çıxartmıram, məktəblərdə yaşlıların gənclərə yer verməməsini müəllim olmaq istəyən bir neçə gəncdən eşitmişəm. Öz timsalımda isə bunun əksini deyərdim, yəni yaşadığım şəhərin məktəblərinə müəllim işləmək üçün məktəbin qapılarını üzümə həmişə açıblar, buna görə müəllimlərimə buradan təşəkkürlərimi bildirirəm. Amma məsələ təkcə mənimlə həll olunmur.

Yaşlı müəllimlər demişkən, bu yaxınlarda "etaloni.ge" təhsil saytı yaşlı müəllimlərin sayı ilə bağlı məlumat yayımlamışdı. Deməli, məlumatda göstərilirdi ki, Gürcüstandakı özəl və ictimai məktəblərdə yaşı 81-i keçmiş 316 müəllim dərs deyir. Bu heç də az rəqəm deyil. Məlumatda həmçinin göstərilirdi ki, ümumi olaraq Gürcüstanda 67 minə yaxın müəllim var, hansının ki, 86 faizi 36 və yuxarı, 13 faizi isə 65 və yuxarı yaşdadır. İldən ilə məktəblərdə yaşlı müəllimlərin sayı artır, daha doğrusu olan-qalan müəllimlər də yaşlaşırlar. Bu, gənclərin məktəblərdə işləməməsinin göstəricisidir ki, bizim durumumuzda iki səbəbi var: ya gənclər özləri məktəbə, müəllimlik peşəsinə maraq göstərmirlər, ya da yaşlı müəllimlər gəncləri məktəbə buraxmırlar. Hər iki halda da bizə, məktəblərimizə ziyan dəyir.

Sonra isə "etaloni.ge" saytı Gürcüstanın Elm, Təhsil, Mədəniyyət və İdman nazirliyinin göstəricilərinə əsasən, müəllimlərin və onların müxtəlif yaşda saylarının dəqiq məlumatını yayımlamışdı. Məlumata əsasən, Gürcüstanın özəl və ictimai məktəblərində 65 149 müəllim çalışır ki, onlardan 15 439-u yaşı 61-dən yuxarı olanlardır. Hansının ki, 790-ı özəl məktəblərdə, 14 649-u isə ictimai məktəblərdə dərs deyir.

**Yalnız bir yaş kateqoriyasında özəl və ictimai məktəblər arasında kəskin fərq var, bu da yaşı 81-i ötmüş müəllimlərdir ki, özəl məktəblərdə yalnız 3 müəllim, ictimai məktəblərdə isə 313 müəllim işləyir. Mənim dərdim yaşlı müəllimlərin məktəblərdə işləməsi deyil, mənim dərdim gənclərin məktəblərdə işləməməsidir. Və aldığımız bəzi səhih məlumatlara görə, məktəblərdə müəllim işləmək istəyən gəncləri yaşlı müəllimlər bu müqəddəs yoldan sapdırırlar. Əgər bu cür hallar həqiqətən də varsa, vallahi, billahi bu, bizim özümüzə ziyandır. Gənclərin önündə Berlin divarı olan o yaşlı müəllimlərin nəvələrinə, nəticələrinə sabah kim ana dilində dərs deyəcək? Bu divarı sındırıb, birgə çalışmaq zamanı deyilmi? Məktəbləri "atalar və oğullar" savaşının meydanına çevirmək gələcək nəsli atasız, anasız, oğulsuz, qızsız, dilsiz qoymaqdır. Nə qədər ki gec deyil "atalar və oğullar" barışmalı, əl-ələ verib məktəblərdəki kadr, dil, həmçinin tədris, dərslik, bina, təmir və digər ikinci, üçüncü dərəcəli problemləri birgə həll etmək lazımdır. Bir də ki, elə bunu da atalar deyib axı: ağıl yaşda deyil, başdadı.**

# "GÜRCÜ ARZUSU" PARTİYASI PARLAMENTİN KUTAİSİDƏN TBİLİSİYƏ KÖÇÜRÜLMƏSİNİ MÜZAKİRƏ EDİR

"Gürcü arzusu"nun deputatı Giorgi Kaxianinin sözlərinə görə, parlamentin Kutaisidən Tbilisiyə köçürülməsi planlaşdırılır.

Prosedur Məsələləri üzrə Komitənin sədri Giorgi Kaxianinin dediyinə əsasən, indi yalnız qanunlayihə mövcuddur və parlament Kutaisidən Tbilisiyə qanunlayihə qəbul olunduqdan sonra keçəcək.

Kutaisidə yerləşən parlament binasının Daxili İşlər Nazirliyinə verilməsindən sonra müəssisə qeyd olunan binada Regional Polis Mərkəzinin yerləşdirilməsini planlaşdırır. Bu haqda daxili işlər nazirinin müavini Nino Cavaxadze bildirib.

Onun sözlərinə görə, Kutaisidəki parlament binasında "112", Patrul Polis Xidməti üzrə Vahid Mərkəz, DİN Akademiyasının Regional Mərkəzi və Xidmət Agentliyi yerləşdiriləcək.

"Patrul Polisi Xidməti üzrə Vahid Mərkəz bu gün yalnız Tbilisidə var və "vahid pəncərə" prinsipi ilə əhaliyə təqribən 50 polis xidməti servis təklif edir. Müvafiq olaraq biz həmin modelin regionlarda əsasının qoyulmasını planlaşdırırıq. Tbilisidən sonra ikinci belə mərkəz artıq Kutaisidə olacaq", - deyə Nino Cavaxadze bildirib.

N.Cavaxadzenin sözlərinə görə, DİN Akademiyasında təhsil almaq yalnız Tbilisi deyil Kutaisi və bütün Qərbi Gürcüstan əhalisi üçün əlçatan olacaq:



"Mərhələli şəkildə bütün polislərimizin kvalifikasiyasını artırmaq bizim planımızdır. Məhz bu məqsədlə DİN Akademiyasında ali təhsil komponentini ləğv etdik və o, artıq ümumilikdə peşəkar təhsilə istiqamətlənib. Yəni mərhələli şəkildə bizim bütün polislərin hazırlanması və hazırlaşdırılması olacaq. Akademiya eləcə də sistemi yeni, kvalifikasiyalı kadrlarla təmin edəcək mərkəz olacaq. Biz artıq işə qəbul olunma qaydasını da dəyişmişik və bu qayda ilə yeni, motivasiyalı kadrlar cəlb olunacaq. Uyğun olaraq, Regional Mərkəz bütün bu servisləri və imkanları artıq Kutaisidə və Qərbi Gürcüstanda yaşayan əhaliyə təklif edəcək".

Parlamentdə qanunverici orqanın Kutaisidən Tbilisiyə tamamilə köçürülməsi məsələsini müzakirə edəcəklər. Parlamentin vitse-spikeri Tamar Çuqoşvilinin sözlərinə görə, parlamentin iki binada çalışması çətindir və onun bəyanatına görə, bu parlamentə institusiya olaraq çox zərər vurur.

# GÜRCÜSTAN PRAVOSLAV KİLSƏSİ HÖKUMƏTİN MARİXUANA İSTEHSALI HAQDA QANUN LAYİHƏSİNİN QARŞISINI ALIB

Gürcüstan Pravoslav Kilsəsinin etirazı ölkə hökumətinin planlarını dəyişib – iqtidar komandası tibbi məqsədlərlə marixuananın istehsalı və ixracını nəzərdə tutan qanun layihəsi üzərində işi dayandırıb.

Sentyabrın 16-da jurnalistlərlə söhbət zamanı parlament sədri İrakli Kobaxidze bəyan edib ki, "Gürcü arzusu" qanun layihəsini qəbul etməyə tələsməyəcək və patriarxlıqla məsləhətləşmələr aparacaq.

Parlament sədrinin bu bəyanatına daha əvvəl Müqəddəs Üçlük Kafedral Kilsəsində bütün Gürcüstanın Katolikos patriarxı İkinci İlyanın səsləndirdiyi moizə səbəb olub.

Xatırladaq ki, 11 sentyabrda Gürcüstan hökuməti ölkədə tibbi və kosmetik məqsədlə marixuana istehsalı və sonrakı mərhələdə ixracına icazə verən qanunvericilik təşəbbüsü ilə çıxış edib. Təşəbbüs Daxili İşlər Nazirliyi tərəfindən hazırlanıb. Qanun layihəsində vurğulanır ki, Gürcüstanda marixuana tibbi və kosmetik məqsədlərlə istehsal olunacaq.

Bütün sosioloji sorğulara əsasən, İkinci İlya Gürcüstanda ən nüfuzlu və təsir gücü yüksək olan insandır. O, hökumətə müraciət edib:

"Hökumət vəziyyətə nəzarət edəcəyinə dair üzərinə öhdəlik götürməlidir. Layihə özəl sektora aid edilməməlidir. Əks təqdirdə biz vəziyyətə nəzarəti itirəcəyik… Biz gənc nəsilləri itirəcəyiksə, belə iqtisadiyyat bizim nəyimizə gərəkdir?!", – patriarx bildirib.

Din xadimləri sentyabrın 12-də patriarxlıqda bu məsələ ilə bağlı "Gürcüstanda narko-siyasət – manelər və beynəlxalq təcrübə" adı altında xüsusi konfrans keçiriblər.

"Marixuananın becərilməsinin leqallaşdırılması, bunda dövlətin iştirakı, həmçinin onun istehsalı və satışında iştirakı yolverilməzdir, çünki bu proses beynəlxalq təhlükəsizlik nöqteyi-nəzərdən risk də daxil olmaqla bir sıra riskləri özündə birləşdirir", – konfrans gedişatında Gürcüstan hakimiyyətinə ünvanlı hazırlanan müraciətdə bildirilir.

Kilsə aləmində Patriarxlıq kürsüsünün nüfuzlu müvəqqəti icraçısı mitropolit Şio Muciri bəyan edib ki, marixuana istifadəsi pravoslavlığa və ənənəvi ailə dəyərlərinə ziddir, buna görə də kilsə bununla heç vaxt razılaşmayacaq.

Onu da xatırlatmaq lazımdır ki, hökumət marixiananın becərilməsi ilə bağlı qanun layihəsini təqdim edəndən sonra din xadimləri etiraz əlaməti olaraq iki küçə yürüşü keçirib.

**Hökumət nə planlaşdırır?**

Hökumət və kilsə marixuana becərilməsi məsələsi ilə bağlı məsləhətləşmə aparmağı planlaşdırır.

Baş nazir Mamuka Baxtadze jurnalistlərə bildirib ki, qanun layihəsinin məqsədi bu sahənin nizamlamasız qalmamasıdır. Onun sözlərinə görə, hökumət marixuana istehsalı məsələsi üzrə "sərt" nizamlamalar hazırlayıb və bitkinin becərilməsinə yalnız tibbi məqsədlərlə imkan veriləcək.

Sentyabrın 15-də maliyyə naziri İvane Maçavariani bəyan edib ki, bu qanun layihəsi Gürcüstanın böyüyən beynəlxalq bazara çıxışına kömək edəcək. Onun sözlərinə görə, hökumət çətənə ixracından yaxın 2-3 ildə 1 milyard lari gəlir gözləyir.

## ƏRDOĞAN: ABŞ-IN TÜRKİYƏYƏ QARŞI SANKSİYALAR SİYASƏTİ TƏRƏFDAŞLIQ PRİNSİPLƏRİNƏ ZİDDİR



ABŞ-ın Türkiyəyə qarşı həyata keçirdiyi sanksiyalar siyasəti iki ölkə arasında strateji tərəfdaşlıq prinsiplərinə ziddir. Bu barədə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan "PBS" telekanalına müsahibəsi zamanı bildirib.

"Biz NATO çərçivəsində ABŞ-ın strateji tərəfdaşıyıq. Bizim strateji tərəfdaşımız olan hər bir ölkəyə öz strateji tərəfdaşına qarşı mümkün sanksiyalar barədə danışmaq yersiz olardı. Türkiyə strateji tərəfdaş kimi öz öhdəliklərini həmişə yerinə yetirib, biz bundan sonra da bunu edəcəyik", - deyə Türkiyə prezidenti bildirib.

## RUSİYADA ƏCNƏBİLƏRİN SÜRÜCÜ KİMİ İŞƏ GÖTÜRÜLMƏSİ QADAĞAN OLUNA BİLƏR



Rusiyada əcnəbilərin sürücü kimi işə götürülməsi qadağan oluna bilər. Rusiya Dövlət Dumasının aşağı palatasına minik taksiləri haqqında yeni qanun layihəsi təqdim olunub. Qanun layihəsinə əsasən, Rusiyada əcnəbilərin sürücü kimi işə götürülməsi ya məhdudlaşdırıla, ya da qadağan edilə bilər.

Jurnalistlərə müsahibəsində Dumanın nəqliyyat və tikinti komitəsinin sədri Yevgeni Moskviçov əminliklə deyib ki, bu cür tədbir taksi sürücülərinin sayının azalmasına və daşıma qiymətlərinin artmasına səbəb olmayacaq. Deputatın sözlərinə görə, son vaxtlar taksilərin iştirakı ilə yol-nəqliyyat hadisələrinin sayı artıb, sərnişinlər sürücülərin marşrutu və rus dilini bilməməsindən şikayət edirlər.

Y.Moskviçov qeyd edib ki, sürücülərin iş saatı da nəzarətdə saxlanılmalıdır. "İstər Rusiya vətəndaşı olsun, istərsə də MDB ölkələrinin vətəndaşı, heç kimin onları 24 saat işlətməyə haqqı yoxdur", - deyə deputat vurğulayıb.

## BMT-NİN GƏNCLİK TƏŞKİLATI İSTANBULDA YERLƏŞƏ BİLƏR



BMT-nin Gənclik Təşkilatı təsis etməsinə böyük ehtiyac var. Bu təklifi Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan BMT-nin Baş Assambleyasının 73-cü sessiyasında çıxış edərkən irəli sürüb. Dövlət başçısı bildirib ki, Türkiyə bu təşkilatın mərkəzi ofisinin hazırda İstanbulda inşa olunan Gənclik Mərkəzində yerləşməsini təklif edir.

## İSTANBULDA 3-CÜ AEROPORTUN AÇILACAĞI TARİX MƏLUM OLUB



İstanbulda üçüncü beynəlxalq hava limanı bu il oktyabrın 29-da açılacaq. Bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan deyib. O bildirib ki, hazırda üçüncü hava limanının yeni terminalı istifadəyə tam hazırdır. Dövlət başçısı əlavə edib ki, terminalla yanaşı, uçuş-eniş zolaqları da istifadəyə hazırdır.

Qeyd edək ki, yeni hava limanında 3.500 reys həyata keçiriləcək.

## MALİYYƏ NAZİRİ: BUĞDANIN İDXALINA QOYULMUŞ QADAĞA 1 İLLİK TƏXİRƏ SALINACAQ



Gürcüstanın maliyyə naziri İvane Macavarianinin sözlərinə görə, buğdanın idxalı ilə bağlı qoyulmuş qadağalar 1 il müddətinə təxirə salınacaq. Bu haqda nazir buğda idxalçıları ilə görüşdən sonra bildirib.

Onun sözlərinə görə, qadağalar 2019-cu ilin 1 oktyabrından qüvvəyə minəcək.

Qeyd edək ki, qadağaların ləğv edilməsi tələbi ilə idxalçıların bir hissəsi Lilo buraxılış məntəqəsində aksiya keçiriblər və yük maşınları ilə "Gez 1" terminalını bağlayıblar.

Xatırladaq ki, Maliyyə Nazirliyi tərəfindən verilmiş qərara əsasən, nəqliyyat vasitələri ilə buğdanın və çovdar ununun ixrac və idxalı 2019-cu ilin 1 yanvarından qadağan olunmalı idi.

## TƏHSİL VƏ HƏYATIMIZDAKI YERİ



Hacı BƏKİROĞLU

*hacibakir@mail.ru*

**Yola salmaqda olduğumuz sentyabr ayı dünyada təhsil ayı kimi də anılmaqdadır. Bəzi ölkələrdə sentyabrın başında, bəzilərində isə ortasında başlasa da nəticədə sentyabrda fəaliyyətə başlayır təhsil sistemi.**

Elə sentyabr ayının girməsiylə də istər valideynlər üçün, istərsə də uşaqlar üçün həyəcan təbili çalmağa başlayır. Onu da deyim ki, bu həyəcan şagirdə və tələbəyə əsas lazım olan təhsil ləvazimatından çox geyim-gecim mövzusunda ön plana çıxır. Bu mövzu bölgəmizdə bəzi məktəblərdə məktəbə özəl geyim formaları təsis etməklə həll olunsa da bir çox məktəblərdə davam etməkdədir.

Gələk əsas mövzu olan təhsilə. Dahi Azərbaycan şairi Seyid Əzim Şirvaninin sözüylə desək: "Təhsil bizim gələcəyimizdir, ölkəmizi dünyaya tanıtmaq üçün bilik, savaddır." Müasir dünyada hər bir ölkənin gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə ölçülür. Gənc nəslin tədrisi, maarifləndirilməsi ən qədim fəaliyyətlərdən biridir. Ola bilsin ki, bəzi cəmiyyətlər təhsil fəaliyyəti və qurumları üçün kifayət qədər resurs əldə edə bilməsin, ancaq hamı təhsilin ictimai həyatda əhəmiyyətli rolunu qeyd-şərtsiz qəbul edir.

Təhsilin əhəmiyyəti bir çox amillərlə bağlıdır. Aydındır ki, uşaqlar həyata ilk addımlarını atanda oxumağı, yazmağı və hesabı bilmirlər. Yaşadıqları cəmiyyətin əxlaq normaları və mədəni nailiyyətləri haqqında xəbərsiz olurlar. Peşəkar müəllimlərin səyləri və ailədəki təlim-tərbiyənin, həmçinin müasir dövrdə kütləvi media vasitələrindən və internetdən irəli gələn imkanların sayəsində gənc nəsil cəmi bir neçə il ərzində oxumağı, yazmağı, hesablamağı, öz ətraf mühitini, əxlaq-davranış normalarını öyrənir.

Diqqət yetirmək lazımdır ki, təhsil dedikdə yalnız formal təhsil, yəni məktəb və ya universitet təhsili nəzərdə tutulmur. Təhsil həyatın müxtəlif çağırışlarına hazırlıq üçün uzunmüddətli və çoxşaxəli öyrənmə prosesidir.

Onu da qeyd edim ki, oxumaq yalnız fənn elmlərini bilməklə bitmir. İnsan dini elmləri də öyrənməli, Allahı, Peyğəmbərini və inanc əsaslarını bilməlidir. Zamanımızda insanlara dini bilikləri öyrən dedikdə qəribə reaksiyalar verirlər və İslamın elmə əhəmiyyət vermədiyini düşünürlər. Bunun səbəbi İslam dinini cəmiyyətdə səhv təbliğ etmələrindən irəli gəlir.

Mən mövzuya bir də dini yöndən yaxınlaşmaq istəyirəm. Qurani-Kərimin ilk nazil olan ayəsi "Oxu"dur. Əgər bir dinin kitabı "oxu", Peyğəmbəri "Elm Çində olsa belə gedin alın" və ya "Beşikdən məzara qədər elm öyrənin" deyirsə, necə ola bilər ki, bu din elmə əhəmiyyət verməsin. İslam dini qədər elmə əhəmiyyət verən başqa bir sistem yoxdur. Müqəddəs kitabımız Qurani-Kərimdə "elm" kəlməsi ən çox təkrar edilən sözlərdəndir və elm sahibləri də bir çox ayələrdə mədh edilir. Həzrəti Peyğəmbər Mədinəyə yerləşdikdən sonra gördüyü ilk və ən əhəmiyyətli işlərdən biri də Suffa adındakı məktəbi qurmaq oldu. Bu məktəbdə hafizlər, hədisçilər, valilər yetişdirdi.

Müsəlman şəxsiyyətlər içərisindən dünyaya və insanlığa fayda verəcək ixtiralar etmiş İbn Sina, Əl Biruni, Əl Cabir, Memar Sinan, Nəsrəddin Tusi və adlarını saymaqla bitməyən bir çox alimlər çıxmışdır.

**Yazıma Həzrəti Əlinin bir sözüylə son vermək istəyirəm ki, bu sözü dərk edən İslamın elmə verdiyi dəyərin nə qəyər böyük olduğunu anlayar: "Heç bir acı cəhalət qədər əziyyət verməz".**

# BƏLİ, BİZƏ QƏZET LAZIMDIR

Hörmərli "Yeni Yol" qəzeti redaksiyası! Mən sizin qəzetnizin daimi oxucusuyam. Qəzetinizin bu ilki 15 avqust tarixli nömrəsində cənab redaktor Azər Musaoğlunun "Sizə qəzet lazımdırmı?" sərlöhvəli yazısı diqqətimi cəlb etdi və həvəslə oxudum, müəllifin bu yazıda yazdıqlarnın hamısı həyat həqiqətləridir. Məncə insanların qəzetə qarşı laqeydliyi çox acınacaqlı və dözülməz haldır.

Əsası 1875-ci ildə H. Zərdabi tərəfindən qoyulan "Əkinçi" qəzeti xalqımızın maariflənməsi yolunda nə qədər yaxşı işlər gördü. 9 şöbədən ibarət olan qəzetin səhifələrində insanlara lazım olan ictimai-siyasi, elm və təhsil, əxlaqi dəyərlər – hamısı bir komponent kimi bir-birini tamamlayırdı.

1906-cı ildə böyük demokrat Cəlil Məmmədquluzadənin nəşr etdirdiyi "Molla Nəsrəddin" jurnalı dünyada, xüsusi ilə Yaxın Şərqdə bir hadisə oldu. İnsanların ağlının, şüurunun və təfəkkürünün oyanmasında bu adlarını çəkdiyim və çəkmədiyim mətbuat orqanlarının əhəmiyyəti azmı olub bəyəm? Hamımız anlamalıyıq ki, qəzet insan üçündür. Qəzet oxumayanları mən bir müəllim kimi ikigözlü kor adlandırıram.

Qəzet çox böyük universitetdir. O, insanları tərbiyə edir, biliyini, savadını zənginləşdirir. Dilimizin orfoqrafiya qaydalarını öyrədir. Bizim hər birimizi gündəlik xəbərlərlə tanış edir. Bir sözlə, kamil insan kimi yetişməyimizə kömək edir.

Anlamaq lazımdır ki, qəzet və jurnal mənəvi qida mənbəyidir. Gözə nur verən, ağlı və şüuru cilalayan bir varlıqdır. Qəzetsiz millət və xalq yalnız barbar ola bilər və müasir sivilizasiyadan kənarda qala bilər.

Mən heç kimə əxlaq dərsi vermək fikrində deyiləm. Sadəcə olaraq qəzet haqqında düşündüklərimi yazıram.

Pul qazanmaq, bizneslə məşğul olmaq yaxşıdır, bununla bərabər qəzet oxumağın da əhəmiyyəti az deyil. İkitərəfli qazanmaq necə bəyəm, pismi olar?

İndi təəssüflər olsun ki, qəzet oxuyanlara rişxənd edirlər: – Hansı dövrdür ə, bunlar qəzet oxuyurlar? Anlamaq lazımdır ki, qəzeti elə bu dövrdə çox oxumaq lazımdır ki, qarmaqarışıq dünyamızdan baş aça biləк.

Çox acınacaqlı haldır ki, kütlə bir yana, indi ziyalılarımız da qəzetlərdən gen düşüblər. Xüsusi ilə müəllimlərimizi deyirəm. Onların sırasında da qəzet oxumayanlar az deyil. Həftələrlə məktəblərə göndərilən qəzetlər stolların üstündə qalır və sahibləri yiyə durmurlar.

– Nə var ki o qəzetlərdə, hamısı boş şeylərdir – deyirlər. Belə olan halda koru körpüdən keçirmək olarmı? Əsla yox.

Müasir gənclik demək olar ki, heç qəzetlə maraqlanmır. Hərəsinin əlində kitab boyda bir telefon başları o qədər qarışır ki, piyada gedərkən küçədə adamlarla toqqalaşırlar.

Mən internetin-filanın əleyhinə deyiləm, ancaq onlar bilməlidirlər ki, ən böyük internet əyani olaraq qəzetlərdir. Qəzetlərdə montaj etmək yoxdur. O, saf



və təmiz büllur kimi pak bir çeşmədir. İçənlər mənəvi cəhətdən sağlam olurlar.

Hamımız bilməliyik ki, qəzet həyata girişin ən böyük mənəviyyat qapısıdır. Onu açıb ora daxil olanlar insanlar arasına həmişə əlidolu və başıdolu çıxırlar.

**Paşa NAĞIOĞLU**
**Yazıçı-publisist**
**Marneuli rayonu, Əzizkənd ictimai məktəbinin müəllimi**

## OKTYABRIN 1-DƏN POLİETİLEN TORBALAR QADAĞAN OLUNACAQ



Gürcüstanda polietilen torbaların istifadəsi, istehsalı və idxalı qadağan olunacaq. Gürcüstan hökumətinin texniki reqlamentinə əsasən, ilkin etapda qadağa 15 mikrondan az qalınlıqda olan torbalara aid olacaq. 2019-cu ilin 1 aprelindən isə istənilən qalınlıqda olan polietilen torbaların istehsalı, idxalı və realizəsi qadağan olunacaq. Həmin reqlamentə əsasən, oksodeqradasiya olan bütün plastik torbaların istehsalı, idxalı və realizəsi tam qadağan olunacaq.

Texniki reqlamentə əsasən, plastik və ya biodeqradasiya olan torbaların kontrolunu sonrakı müəssisələr həyata keçirəcək:

Torbanın istehsalı zamanı – Gürcüstanın Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyinin Dövlət müəssisəsi Ətraf Mühit üzrə Nəzarət Departamenti;

Torbanın idxalı zamanı – Gürcüstan Maliyyə Nazirliyi;

Torbanın realizəsi zamanı – Yerli özünüidarəetmə orqanları.

Torbanın istehsalı-realizəsi qaydalarının pozulması zamanı məsuliyyət Gürcüstan İnzibati Xətalar Məcəlləsi ilə müəyyən ediləcək. Məcəlləyə əsasən, tənzimləmə qaydasını pozmaq istehsalçı subyektin müvafiq məhsulun müsadirə edilməsi ilə bərabər 500 lari dəyərində cərimələnməsinə səbəb olacaq. Təkrar törədilmiş hərəkət isə istehsalçı subyektin 1000 lari dəyərində cərimələnməsinə səbəb olacaq.

Qeyd edək ki, polietilen torbaların qadağan olunması haqqında söhbət 2017-ci ildən başlayıb. Layihənin həyata keçirilməsi artıq 2018-ci ilin yanvar ayından planlaşdırılırdı. Ancaq həmin tarixdə layihənin bitməsi dayandı və qüvvəyə minmə tarixi təxirə salındı. Onda da, indi də polietilen və oksodeqradasiya olan plastik torbaların qadağan olunmasının əsas səbəbi kimi torbaların kimyəvi tərkibli olması göstərilirdi. Bu isə təbiətə ciddi zərər vurur və onun tam çürüməsi üçün 100 il vaxt lazımdır.

2014-cü ilin göstəricilərinə əsasən, Gürcüstanda bir vətəndaş orta hesabla ildə 525 birdəfəlik plastik torbadan istifadə edir. Məsələn, İrlandiyada qeyd olunan göstərici 14 plastik torba, Danimarka və Finlandiyada isə yalnız 4 torbanı təşkil edir.

Müəllif:
Lika AMİRAŞVİLİ

## BALIQ YETİŞDİRMƏK ÜÇÜN XÜSUSİ LİSENZİYA ALMAQ VACİB OLACAQ

Gürcüstanda balıq yetişdirmək üçün lisenziya tələb oluna bilər. Bu haqda parlamentə təqdim olunmuş qanun layihədə deyilir. Qanun layihəsi payız sessiyasında müzakirə olunacaq.

Qeyd edilir ki, qanun layihənin hazırlanmasına qüvvədə olan qanunvericiliklə ölkədə akvakultura və marikultura ilə bağlı məsələlərin tənzimlənməməsi səbəb olub. (Akvakultura – su mühitində yetişdirilən faydalı orqanizmlər, o cümlədən marikultura (dəniz akvakulturası) – dəniz, liman və estuariyalarda faydalı yosun, malyusk, balıq və digər orqanizmlərin yetişdirilməsi).

"Bu gün dünyada qeyd olunan resursa qarşı tələbin artmasını nəzərə almaqla akvakultura və marikultura növlərinin əldə olunmasının qanunverici çərçivəsinin müəyyən edilməsi vacibdir. Qanun layihə ilə "lisenziya və icazələr haqqında" Gürcüstan qanununa dəyişikliyin daxil edilməsi planlaşdırılıb. Buna əsasən sənayenin akvakultura və marikultura sahələri ilə məşğul olmaq lisenziyalaşdırmaya tabe olacaq", - qanun layihədə qeyd olunur.

## GÜRCÜSTAN ORDUSUNDA XİDMƏT EDƏN MİLLİ AZLIQLARIN NÜMAYƏNDƏLƏRİNƏ GÜRCÜ DİLİ ÖYRƏDİLƏCƏK

Gürcüstanda həqiqi hərbi xidmət keçən milli azlıqların nümayəndələri üçün gürcü dilinin tədrisinə başlanılıb. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

"Xtsisi" hərbi bazasında start verilən 7 həftəlik proqramda 82 azərbaycanlı və 41 erməni çağırışçı iştirak edir. Dil kursu Zurab Jvaniya adına Dövlət İdarəçilik Məktəbinin müəllimləri tərəfindən keçirilir.

Proqram çərçivəsində çağırışçılar dövlət dilində yazmaq, oxumaq, danışmaq, rəsmi məktub və sənədləri yazmağı öyrənəcəklər. Kursun başa çatmasından sonra çağırışçılar sertifikatlarla təltif olunacaqlar.

Tədris proqramının həyata keçirilməsində məqsəd milli azlıqlardan olan Gürcüstan vətəndaşlarının dövlət dili üzrə biliklərinin artırılması, silahlı qüvvələrə inteqrasiyası, karyeralarının silahlı qüvvələrdə davam etdirilməsinə imkanın yaradılmasıdır. Layihə Gürcüstanın Müdafiə Nazirliyi tərəfindən Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin dəstəyi ilə həyata keçirilir.

## TAKSİ SÜRÜCÜLƏRİ AVTOMOBİLLƏRƏ REKLAM BANERLƏRİ YERLƏŞDİRƏ BİLƏCƏKLƏR VƏ BUNA GÖRƏ ƏLAVƏ GƏLİR ƏLDƏ EDƏCƏKLƏR

Taksilərin xarici görünüşü və avtomobillərə reklam banerləri vurulması haqqında vahid standart cari ilin 1 noyabr tarixində təsdiqlənəcək. Bu haqda paytaxt meri Kaxa Kaladze hökumət iclasında bildirib.

Kaladzenin qeyd etdiyinə görə, taksi sürücülərinin avtomobildə reklam üçün ayrılmış yerdən istifadə etmək və özəl sektorla əməkdaşlıq nəticəsində əlavə maddi gəlir əldə etmək imkanı olacaq.

"Taksilərin reforması çərçivəsində Tbilisi meriyası taksilərin vahid vizual standartları üzərində çalışır və bu, 2019-cu ilin oktyabr ayından qüvvəyə minərək məcburi olacaq. Ancaq bu standart 1 noyabrdan məlum olacaq və lisenziyası olan, taksilik etmək istəyən hər kəs biləcək.

Qeyd olunan standart taksi sürücülərinə əlavə gəlir gətirəcək, belə ki, taksilərdə reklam yerləşdirmək üçün yer olacaq. Taksi sürücülərinin avtomobildə reklam üçün ayrılmış bu yerdən istifadə etmək və özəl sektorla əməkdaşlıq nəticəsində əlavə maddi gəlir əldə etmək imkanı olacaq. Bunu lisenziyası olan taksi sürücüləri edə biləcəklər", - deyə K. Kaladze bildirib.

# PEŞƏ MƏRKƏZLƏRİ VƏ UŞAQ BAĞÇALARI MƏKTƏBLƏRDƏ YERLƏŞDİRİLƏ BİLƏR



Təhsil, Regional İnkişaf və İnfrastruktur Nazirlikləri ölkə miqyasında məktəblərin yoxlayışını həyata keçirir. Nəticədə isə region məktəblərində uşaq bağçalarının və peşə mərkəzlərinin yerləşdirilməsi istisna deyil. Bu haqda təhsil nazirinin müavini İrina Abuladze "Məktəbin idarəsi və beynəlxalq liderlik konfransı"nda danışıb.

Nazir müavininin izahatına görə, yeni təhsil baxışlarından birinin əsası məktəbəqədər hazırlıq proqramlarıdır. Ona görə də nazirliyin məqsədi bu sistemə daha çox uşaq qoşmaqdır.

"Bizim birinci məqsədimiz artıq təsdiqlənmiş standartların əsasını qoymaqdır. Artıq 5-6 yaşa qədər olan uşaqlar kimi 2-4 yaşa qədər uşaqlar üçün də rəngarəng resurslar yaratmalıyıq. Bu proqramlar daha çox uşaq üçün əlçatan olmalıdır. Bugünkü məlumata görə, 5-6 yaşlı uşaqların yalnız 25%-ni məktəbəhazırlıq sistemi təmin edə bilir və bu olduqca çox aşağı göstəricidir. Gələn 5 illik perspektivdə bu təminatın tam olması haqda danışmalıyıq. Regionlarda infrastruktur baxımından bağça məkanı yarada biləcək məktəblər var. Regional İnkişaf və İnfrastruktur Nazirliyi və Maliyyə Nazirliyi ilə birgə bu ay məktəblərin yoxlayışını həyata keçiririk. Regionlarda olan resurslardan maksimum dərəcədə istifadə etməyə çalışmalıyıq. Məktəb öz üzərinə müxtəlif funksiyalar götürə bilər, məsələn, hansısa peşəkar proqram, bağça və yaxud da gənclər mərkəzi məktəb məkanında fəaliyyətə başlaya bilər. Məktəblər bir çox regionlarda yeganə vacib institusiyadır. Məktəbdən multi funksiyalar mərkəzi olaraq istifadə etmək çox vacibdir. "Minilliyin Çağırışı – Gürcüstan"ın dəstəyi ilə Gürcüstan miqyasında məktəblərin siyahıya alınması prosesi gedir. Bununla məktəblərin daxili və xarici perimetr istiqamətində infrastruktur baxımından hansı vəziyyətdə olması ilə bağlı, nəyə malik olduğumuza dair yekun nəticəmiz olacaq ", - deyə İrina Abuladze bildirib.

Onun sözlərinə görə, məktəbəhazırlıq proqramlarının həyata keçirilməsi ilə məktəb yaşı da əlaqəlidir. Buna nəzər yetirilməsi konkret nəticələr olana qədər planlaşdırılmır.

"Məktəbəqədər təhsil çox vacibdir. Şagirdlər məktəbə hansı hazırlıqla gedirlər – bu onların gələcək akademik uğurlarını müəyyən edir. Məktəb yaşı ilə əlaqədar çox sual eşidilir ki, yaş həddinin azaldılmasını planlaşdırırıq ya yox. Şagirdin 6 yaşdan tez məktəbə daxil olmaması qərarı psixoloqlar tərəfindən bizdə olan göstəricilərdən dolayı verildi. Əgər minimum 5-6 yaşlı uşaqlar üçün əlçatan olan məktəbəqədər hazırlıq proqramlarımız olsa onlar, aydındır ki, hazırlıqlı olacaqlar və gələcəkdə ola bilsin yaş həddinin azaldılmasından söhbət açaq. Amma indi bu çox qeyri-ciddi olardı. Heç bir göstərici dəyişməyib ki, biz tədris ilinin başlanğıcında 6 yaş standartı əvəzinə, deyək ki, 5 yaşlı uşaq məktəbə daxil olsun. Və ya, deyək ki, hansısa komissiya yaradılacaq və uşaqların hazırlıq dərəcəsini qiymətləndirəcək. Bu istisnadır. Oxşar hal neçə il bundan əvvəl oldu və nə baş verdiyini gördük", - bildirib nazir müavini.

# 3512 BAŞ MÜƏLLİM, 172 APARICI MÜƏLLİM VƏ 19 MENTOR MÜƏLLİM – MƏKTƏB PEDAQOQLARININ STATUSU DƏYİŞİB



Beş minə yaxın məktəb pedaqoqunun statusu dəyişib. 3512 baş müəllim, 172 aparıcı müəllim, 19 isə mentor müəllim olub. Pedaqoqlar müəllimlərin peşəkar inkişaf sxemində bir addım irəli gediblər. Qaldırılmış status isə artırılmış maaşa bərabərdir və statusu dəyişmiş müəllimlər 15 sentyabrdan yeni əmək haqqı alacaqlar.

Müəllimlərin Peşəkar İnkişaf Mərkəzinin direktor müavini Manana Ratiani bildirib ki, hələ status verilməsi prosesi başa çatmayıb. Çünki indiki mərhələdə sentyabra qədər statusun dəyişdirilməsinə dair müraciət edən pedaqoqların statusunun dəyişdirilməsi üçün sərəncam verilib.

"Sentyabrda 1100 müraciət daxil olub. Bunlara eləcə də statusların dəyişdirilməsi əlavə olunacaq. Bu rəqəmə həmçinin imtahanı uğurla başa vurmuş pedaqoqların sayı əlavə olunacaq. Belə müəllimlərin sayı ümumilikdə 1346-dır. Ancaq bunlardan neçəsinin statusu dəyişəcək, onu dəqiq bilmirik. Onlar üçün xüsusi müddət qoyacağıq. 280 nəfər müəllim var ki, fənn və pedaqoji kompetensiyanı təsdiqləyən testlərdən 10-10 kredit toplayıb. Onlara da avtomatik status veriləcək. İndiki mərhələdə 3512 baş müəllim, 172 aparıcı və 19 mentor müəllim oldu", – deyib Manana Ratiani.

Müəllimlərin Peşəkar İnkişaf Mərkəzinin direktor müavini statusun dəyişdirilməsi ilə bağlı müraciət edənlərin hamısının statusunun dəyişdirilmədiyini qeyd edib.

"Mentorluğa 14 müəllimin müraciəti təsdiqlənmədi. 33 müəllim mentorluq istəyirdi. Bunun 9 nəfəri mentor statusu qazandı, 14-ü isə qazana bilmədi.

Müraciət edənlərdən 51 müəllim aparıcı statusu qazana bilməyib. Səbəb isə əsasən monitorinq qrupunun yenidən yoxladığı, onların öhdəlik komponentləridir. Qiymətləndirmə qrupu və bizim tərəfimizdən aparılan qiymətləndirmədə uyğunsuzluq var idi və bundan dolayı onlara status verilmədi.

Ümumilikdə artıq 3793 nəfərin statusu dəyişib, sentyabrda daxil olan 1100 müraciət buna əlavə olunacaq. İki imtahandan 10-10 kredit toplayan 280 nəfər də əlavə olunacaq, geridə qalanına baxacağıq görək 1300 müəllimdən neçəsi statusunun dəyişməsi üçün hazırdır. Ümumilikdə bu 6000-ə qədər müəllim olacaq, yəni 6 minə qədər müəllim statusunu dəyişəcək", - deyə Manana Ratiani bildirib.

Elə hallar var idi ki, müəllimlər sənədləri səhv sütuna yükləmişdilər. Ratianinin dediyinə görə, apellyasiya zamanı texniki səhvin düzəldilməsi mümkündür:

"Bizdə apellyasiya prosesi gedir. Əgər qiymətləndirmə qrupu tərəfindən hansısa növ texniki səhv olubsa, əgər müəllim bütün sənədləri yükləyibsə, ola bilsin başqa sütuna yükləyib və yaxud hansısa texniki səhv olub. Bunu apellyasiya yolu ilə düzəltmək mümkündür. 17 oktyabra qədər müəllimlərin bizim mərkəzə apellyasiya ərizəsi daxil etmək imkanı var".

Müəllimlərin özlərinin elektron bazasında artıq dəyişmiş statusları göstərilib. Manana Ratianinin dediyinə görə, dəyişmiş statusların yerləşdirilməsi mərhələli şəkildə davam edir. Sərəncam yeni verilib və ola bilsin hamının statusu hələ bazaya yüklənməyib. Ancaq bu tezliklə baş verəcək.

"Sentyabrda daxil olan ərizələrə gəldikdə isə, güman ki, gələn cümə günü artıq bunun üzərində çalışmaları da bitirməliyik. Statusu artıq dəyişmiş pedaqoqlar 15 sentyabrdan artırılmış əmək haqqı alacaqlar.

Ümumilikdə, yəqin ki, statistik vəziyyət maraqlıdır. Müəllimlər tərəfindən 120-mindən artıq aktivlik keçirilib və "eschool"un bazasına yerləşdirilib. Statusa əsasən müəllimlərin nə qədər aktiv olduqlarının göstəriciləri də maraqlıdır. Əgər indiyə kimi aktivliklərin həyata keçirilməsində 70%-ə qədər təcrübəçi müəllimlər aktivlik edirdisə, aparıcıların və baş müəllimlərin hissəsi daha yüksəkdir və aktivlik 80% artacaq. Mən bütün pedaqoqları statuslarının dəyişməsinə görə təbrik edirəm", - bildirib Manana Ratiani.

# MÜƏLLİM VƏ MƏKTƏB DİREKTORLARI ÜÇÜN QRANT MÜSABİQƏLƏRİ ELAN EDİLİB

Müəllimlərin Milli Peşəkar İnkişaf Mərkəzi müəllimlər və məktəb direktorlarının peşəkar inkişaf layihəsi çərçivəsində sonrakı istiqamətlərdə qrant müsabiqələri elan edir:

1."İctimai məktəblərin kimya müəllimlərinin əməkdaşlıq mədəniyyətini gücləndirmək və peşəkar inkişaf".

2."İctimai məktəblərin fizika müəllimlərinin əməkdaşlıq mədəniyyətini gücləndirmək və peşəkar inkişaf".

3."İctimai məktəblərin biologiya müəllimlərinin əməkdaşlıq mədəniyyətini gücləndirmək və peşəkar inkişaf".

4. "İctimai məktəblərin riyaziyyat müəllimlərinin əməkdaşlıq mədəniyyətini gücləndirmək və peşəkar inkişaf".

5."İctimai məktəblərin coğrafiya müəllimlərinin əməkdaşlıq mədəniyyətini gücləndirmək və peşəkar inkişaf".

6."İctimai məktəb direktorlarının əməkdaşlıq mədəniyyətini gücləndirmək və peşəkar inkişaf".

Elan edilmiş müsabiqələrin məqsədi müvafiq fənn istqamətində müəllimlər arasında əməkdaşlıq mədəniyyətini gücləndirmək və ictimai məktəb direktorlarının əməkdaşlıq mədəniyyətinin inkişafına dəstək olmaqdır.

Müsabiqədə qeydiyyatdan keçəcək və ya artıq mərkəzin elektron bazasında olan, təhsil sahəsində çalışan, Gürcüstan qanunvericiliyinə uyğun olaraq yaradılmış qeyri-kommersial hüquqi şəxslər və ya ictimai hüquqi şəxslər iştirak edə bilərlər.

Qrant müsabiqə üçün müraciətin qəbul müddəti 2018-ci ilin 20 sentyabrından 2018-ci ilin 8 oktyabr tarixinə qədər davam edəcək.

# XÜSUSİ MÜƏLLİMİN ƏMƏK HAQQI NECƏ HESABLANIR – QANUNDA DƏYİŞİKLİK VAR

"İctimai məktəblərin müəllimlərinin əmək haqqının minimal dəyəri və şərtlərin müəyyən edilməsi haqqında" nazirin sərəncamına dəyişiklik daxil olub və xüsusi müəllimlərin əmək haqqının dəyəri və şərtləri qanunla müəyyən olunacaq.

Xüsusi müəllim kimdir?

Xüsusi müəllim – müəllimlərin peşəkar standartı ilə müəyyən edilmiş peşəkar biliyi, bacarığı və müvafiq kvalifikasiyası olan şəxsdir. O, müstəqil və ya fənn müəllimi ilə birgə, nəticələrin daha yaxşı olması və müxtəlif bacarıqların inkişafı məqsədi ilə xüsusi tədris ehtiyacı olan şagirdlərə dərs keçir.

Xüsusi müəllimin əmək haqqı iş saatlarına əsasən hesablanacaq.

Xüsusi müəllimin əmək haqqının hesablanması nümunəsi:

1. Bu maddənin 2-ci bəndi xüsusi müəllimin maaşının hesablanması yollarını müəyyən edir:

a) Kimin var:

a.a) Magistr üzrə akademik dərəcəsi, həmçinin, 2000-ci il də daxil olmaqla alınan 4 illik ali pedaqoji təhsil;

a.b) 4 illik iş təcrübəsi;

b) Sinif rəhbərliyi;

2) Bu maddənin 1-ci bəndi ilə nəzərdə tutulmuş xüsusi müəllimin maaşının hesablanmasının ən asan yolu:

a) Əlavə N2-də – 1-dən 5 ilə qədər iş təcrübəsi olan xüsusi müəllimin maaşı verilib (bizim vəziyyətdə müəllimin maaşı 524,48 larini təşkil edir).

b) Əlavə N4-də – sinif rəhbərinin müəyyən edilmiş əlavəsi verilib (bizim vəziyyətdə əlavə 101,25 larini təşkil edir).

q) Bu maddənin "a" və "b" aşağıbəndlərində əldə olunan məbləğlər toplanmalıdır (524,48+101,25=625,73 lari), yəni müəllimin bir aylıq maaşı 625,73 larini təşkil edir.

3. Qeyd olunan xüsusi müəllimin maaşının hesablanması müvafiq əlavələrdə verilmiş sayından istifadə edərək asan aritmetik işlər yerinə yetirilməlidir. Bizim vəziyyətdə:

a) 405*1,1+405*1,1*0,15+405*0,2*0,15=524.48 lari (Əlavə N3)

b) 405*0,25=101,25 lari (Əlavə N4)

q) Bu bəndin "a" və "b" aşağıbəndlərində verilmiş məbləğlər toplanmalıdır (524,48+101,25=625,73 lari).

*Səhifəni hazırladı:*
*Aynurə ƏLİYEVA*

# TBİLİSİDƏ YERLƏŞƏN AZƏRBAYCAN TEATRINDA SEZONUN AÇILIŞI HƏLƏ OLMAYIB. BUNA SƏBƏB İSƏ TEATRDA BAŞ VERƏN BƏZİ HADİSƏLƏRDİR Kİ, SENTYABRIN 24-Ü "İFACT.GE" SAYTINA İSTİNADƏN YAYIMLANAN "DİREKTOR TEATRI AİLƏ BİZNESİNƏ ÇEVİRİB" BAŞLIQLI YAZIDA MƏSƏLƏYƏ AYDINLIQ GƏTİRMƏYƏ ÇALIŞILIB. YAZINI OLDUĞU KİMİ "YENİ YOL"UN OXUCULARININ DİQQƏTİNƏ ÇATDIRIRIQ




Varlam Nikoladze 2016-cı ildə Tbilisi Azərbaycan Dövlət Dram Teatrına bədii rəhbər təyin edilib. Qəzetdə yer alan məlumata görə, o, 1992-ci ildə Şevardnadzenin Gürcüstana qayıtmasına qarşı çıxıb. Bu səbəbdən Nikoladze Türkiyəyə köçərək Trabzon, İzmir, Ankara və İstanbulda teatr idarəetməsi ilə məşğul olmağa başlayıb.

Nikoladzenin türk dili bilməsi ona teatr heyəti ilə əlaqə qurmaqda yardım edir. Teatr heyəti: aktyor və aktrisalar isə onu ailə üzvlərinə çox, onlara isə az ödəniş etməsinə görə günahlandırırlar.

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Gürcüstandakı əliaçıq donorlardan biridir. Buna baxmayaraq, şirkət teatra verilən hədiyyələri "xeyriyyə" adlandıraraq açıqlamaq istəmədiyini bildirib. Ancaq Gürcüstanın keçmiş mədəniyyət naziri Mixeil Giorqadzenin sözlərinə görə, 2017-ci ildə Neft Şirkəti teatr üçün yeni bina tikintisini öz üzərinə götürüb.

Teatrın bədii rəhbəri Varlam Nikoladze teatr üçün yeni bina tikintisi məsələsinin doğru olmadığını iddia edir.

"Muzeydə tədbirdə idim. Dostlarımdan biri gəlib məni təbrik edərək mədəniyyət nazirinin müsahibəsində teatr üçün yeni binanın inşasına başlayacaqlarını bildirdiyini dedi.

Nazirlikdən soruşduqda isə bu barədə nəsə bilmədiklərini dedilər. Sonra SOCAR-la əlaqə saxlayaraq layihəni bizə göstərmədən tikintiyə niyə başladıqlarını soruşdum. Onlar da cavablarında tikintinin başladılmadığını bildirdilər", - Nikoladze deyir.

Gürcüstan Mədəniyyət Nazirliyinin media nümayəndəsi Anuki Kankia teatr heyətinin onlar üçün ayrılan ərazi ilə razılaşmadıqlarını qeyd edib.

"Onlar köhnə binanın təmir olunmasını istəyirlər", - Kankia deyib.

Teatrın 100 yaşlı qədim binası Qorqasali küçəsində yerləşir və indi bina məşqlər üçün istifadə olunur.

"Binada 40 ailənin yaşadığı və onlar tərəfindən özəlləşdirildiyi üçün oranın təmir edilməsi qeyri-mümkündür", - Kankia əlavə edib.

Azərbaycan teatrı 1873-cü ildə yaradılıb. Sovet dövründə teatr 50 il fəaliyyətsiz qalıb. 2003-cü ildə isə yenidən fəaliyyətə başlayıb. Teatrda iki tamaşa ildə hər biri 2 dəfə olmaqla səhnələşdirilir. Biletlərin qiyməti isə 5 laridir.

Azər Musaoğlu 8 ildən çoxdur ki, teatrda fəaliyyət göstərir. O, Tbilisidən 50 km aralıda yerləşən Qardabani rayonunda yaşayır.

"İclasda teatrın işçisi olaraq elə adlar çəkildi ki, biz birinci dəfə idi eşidirdik. Amma bütün tamaşalarda iştirak edən, soyuqda-istidə çalışan aktyor və aktrisaların əmək haqqı azdır", - Musaoğlu deyir.

Tender sənədlərinə görə, Varlam Nikoladze bu il "Oyunbaz" tamaşasında etdiyi dəyişikliklərə görə 3,125 lari qonorar əldə edib. Onun aylıq maaşı isə 790 laridir.

Musaoğlu aylıq maaşının 288 lari olduğunu deyir. Mədəniyyət Nazirliyinin "iFact.ge"-yə verdiyi məlumata görə, aktyor və aktrisaların ən yüksək maaşı 450, ən aşağısı isə 220 laridir.

"Nikoladzenin qohumlarının teatrda işləməsi və yüksək məbləğdə honorar alması faktdır. Yalnız qohumlar yox, o, öz dostlarını da tamaşalar hazırlamağa, rəssamlıq və bəstəkarlıq etməyə dəvət edir", - Musaoğlu belə deyir.

Aktrisa Aidə Tağıyevanın sözlərinə görə, Mədəniyyət Nazirliyi Nikoladzenin bədii rəhbər təyin olunmasından sonra hər tamaşa üçün pul ayırmağa başlayıb.

Mədəniyyət Nazirliyinin 2017-ci il büdcəsindən teatr üçün 216,811 lari ayrılıb. Onun 130,080-i maaşlar, 86,485 min larisi isə xərclər və avadanlıqlar üçün ayrılıb.

SOCAR isə xeyriyyə məqsədilə görülən işləri açıqlamamağı üstün tutur (Nikoladzeyə görə 2017-ci ildə SOCAR 15.000 dollar məbləğində vəsaiti teatra bağışlayıb. Onun sözlərinə görə, o, bu pulu çox çalışan işçilərini həvəsləndirmək məqsədi ilə istifadə edir).

"Tamaşa xərcləri üçün təxminən 90,000 lari pul ayrılıb. Bir tamaşada 4-5, bəzən isə 7 nəfərik. Səhnə dekorasiyalarının çox pul tutmadığını bilirik. Onların keyfiyyəti yaxşı deyil. Bizim geyimlərimizin keyfiyyəti də aşağıdır," - Tağıyeva deyir.

Nikoladzenin sözlərinə görə, 2017-ci ildə teatr iki əvəzinə üç tamaşa səhnələşdirib. Həmçinin, onlar Türkiyəyə də teatr festivalı üçün gediblər: "Qalmaq xərclərini təşkilatçılar qarşıladılar. Ancaq biz səyahət və gündəlik xərcləri ödədik. Ümumi, 21 nəfər getmişdik," - Nikoladze bildirir.

Tağıyevanın sözlərinə görə, Nikoladze honorarları oğlanları, gəlini və iki ögey qızına verib.

Onun oğlu Aleksandr Nikoladze "Oyunbaz" tamaşası üçün mahnı hazırladığına görə 2500 lari məbləğində honorar alıb. Nikoladzenin gəlininin adı "Fəryad edənin səsi" tamaşasında xareoqraf kimi qeyd olunub. Buna baxmayaraq, onun bu iş üçün hansı məbləğdə honorar almasına dair heç bir rəsmi sənəd yoxdur.

Varlam Nikoladzenin sözlərinə görə, bütün sənədlər tender siyahısında olmalıdır:

"Siz sənədlər məsələsinə görə direktor Natalia Kananeli ilə danışmalısınız. Mən bütün sənədləri imzalamışam. Sənədlərin niyə orda olmamasının səbəbini bilmirəm," - Nikoladze deyir.

Nikoladzenin ögey qızı Anastasia Rexviashvilinin adı "Azad ailə" tamaşasının posterində dizayner, "Fəryad edənin səsi" tamaşasında isə musiqi tərtibatçısı kimi qeyd olunub. Onun bacısı Keti Rexviaşvilinin adı da "Azad ailə" tamaşasında musiqi tərtibatçısı kimi qeyd olunub.

"Bir insanın müxtəlif vəzifələrdə olması sizə qeyri-adi görünə bilər. Anastasia rəssamdır, eyni zamanda onun musiqi bacarıqları da var. O, bizim üçün heç bir musiqi bəstələməyib. O, bəstəkar deyil. O, tamaşa üçün uyğun musiqini seçib," - Nikoladze deyir.

Nikoladze əlavə edir ki, onun teatra dəvət etdiyi şəxslərə çox ödəniş etmir. Onun sözlərinə görə, o, övladlarına 5,000 lari əvəzinə 2,000, ya da 3,000 lari ödəniş edir.

"Bura gələndə tanınmış və peşəkar dostlarla işləmək istədim. Ancaq onların öz qiyməti var, ondan aşağı heç yerdə işləmirlər. Oğlum Sandro ilə yeni musiqi hazırladım. Tamaşada 7-8 musiqi var idi. Onların hər birini ayrıca hesablasaz, bu, 64,000 dollar pul edir. Ancaq mən ona 2500 lari verdim", - Nikoladze əlavə edir.

A.Tağıyeva Tbilisidə yerləşən ən böyük açıq Lilo bazarına səfərlərindən danışır.

"Bir cüt ayaqqabıya 35, digərinə isə 60 lari pul ödədik. Rəsmi sənəddə isə bir ayaqqabıya 150 lari verdiyimiz yazılıb.

Biz bir nəfərin tam geyiminə 200 lari pul xərcləyirik. Amma bu da sənəddə yazılıb ki, bir kostyum üçün 200 lari vermişik. Həmin vaxt direktor Kananeli bizimlə idi", - Tağıyeva bildirir.

"Mənim geyimlərimə nə qədər ödədiklərini bilmirəm. Bu da araşdırılmalıdır", - Musaoğlu belə deyir.

Tağıyevanın sözlərinə görə, Mədəniyyət Nazirliyinin rəsmiləri onlara teatr heyətinin müraciətindən sonra Dövlət Audit Bürosunu araşdırma üçün teatra göndərəcəklərini deyiblər.

Nikoladzenin "iFact.ge"-yə açıqlamasına görə, teatr alış-verişi yalnız qəbzlə edə biləcəyini deyib. Nikoladze onu da əlavə edib ki, aktrisa və aktyorların niyə qəbzsiz nəğd pulla ayaqqabı və kostyum aldıqlarını Kananeli izah edə bilər. Kananeli isə suallara Audit Bürosunun araşdırmasından sonra cavab verəcəyini bildirib.

Aktyor Binəli İslamoğlunun sözlərinə görə, o, "Sehirli papaq" tamaşası üçün geyimlərini öz evindən götürüb.

"Nikoladzeyə pulu necə xərcləməsini soruşanda, o, bizə bunu soruşmağa haqqımız olmadığını dedi", - İslamoğlu qeyd edir.

"iFact.ge" jurnalistləri Nikoladzeyə bu sualı ünvanlayanda da, o, eyni cavabı verib:

Nikoladze: "Onlar mənə sənədləri görmək istədiklərini dedilər. Mən də onlara o sənədləri görməyə haqları olmadığını dedim. Satınalma meneceri, auditor, Kananeli və mən o sənədlərə baxa bilərik".

Jurnalist: "Amma sənədlər hamıya açıqdır".

Nikoladze: "Bəli, ictimaiyyətə açıqdır. Onlar nə istəyirlər, heç nə başa düşmürəm. İşimi davam edib-etməyəcəyimi Audit Bürosunun araşdırmasından sonra qərar verəcəm".

Fazil Bayramov 10 ildən çoxdur ki, teatrda aktyor kimi fəaliyyət göstərir. Onun sözlərinə görə, Nikoladzedən əvvəl onlar yaxşı tamaşalar səhnələşdiriblər.

"Oyunbaz tamaşası üçün 18.000 lari ayrılıb. Tamaşada 4 aktyor var idi. Tamaşada geyimlər, stol, köhnə tamaşadan divan, kreslo da onun kimi. Bir də 1-2 ədəd xəncər, masa, bir də banner. 18.000 larini hara xərclədi? Bu pulla 3 otaqlı balaca ev ala bilərdim", - Bayramov belə deyir.

Bayramovun sözlərinə görə, onlar əvvəl bir çox teatrda tamaşalar səhnələşdiriblər. Nikoladzedən sonra yalnız Tbilisi Pantomima Teatrında oynayıblar.

"Nikoladze deyir ki, digər teatrlarda kirayə pulu yüksəkdir. Amma ortada cəmi 100 lari fərq var. 100 lari artıq verib gözəl yerdə oynaya bilmərik?" - Bayramov soruşur.

Nikoladzenin sözlərinə görə, Pantomima Teatrının 2 günü üçün 900 lari ödəyiblər.

"Marcanaşvili Teatrının bir günü 3200 laridir. Pantomima bizim üçün ən ucuz yerdir. Direktor Amiran Şalikaşvili mənim dostumdur", - Nikoldaze deyir.

"Nikoladzedən əvvəl qonorar alırdım. Amma indi bilmirəm. Ancaq aylıq 320 lari alıram", - Bayramov əlavə edir.

Bayramovun sözlərinə görə, biletin biri 5 lari olmaqla "Sehirli papaq" tamaşasını göstərmək üçün Marneuli, Qardabani və Bolnisiyə olan səfərlərindən 900 bilet satılıb. Qardabanidə olan qastrol səfərini yerli hökumət təşkil edərək, teatra 1500 lari ödəniş edib.

Nikoladzenin sözlərinə görə, dövlət qastrol səfərləri üçün heç bir pul ayırmır: "Onlar teatra bunun üçün heç bir ödəniş etməyib".

"Mən heç nədə günahkar deyiləm. Onlar istədikləri vaxt auditoru gətirib nəticələri öyrənə bilərlər. Əgər auditorun qərarı mənim doğru olduğumu göstərsə, mən məhkəməyə müraciət edərək mənəvi təzminat tələb edəcəm", - Nikoladzenin son sözü belə olub.

## KVEMO KARTLİDƏ ESTONİYA YATIRIMI İLƏ HƏYATA KEÇİRİLƏN GENİŞ MİQYASLI LAYİHƏ



Kvemo Kartli qubernatoru Şota Rexviaşvili Qardabani bələdiyyəsində "Tbilisi Hills Golf & Residences"in tikintisinin ikinci mərhələsinin başlamasına həsr olunan rəsmi mərasimdə iştirak edib. Layihə ərazidə yaşayış binalarının və şəhərciklərin tikilməsini nəzərdə tutur.

Tədbirdə Estoniyanın Gürcüstandakı səfiri Kai Kaarelson, "AS Skinest Group"un təsisçisi və rəhbəri Oleq Osinovski və Qardabani bələdiyyəsinin meri Ramaz Budağaşvili iştirak edib.

"Tbilisi Hills Golf & Residences"in torpaq sahəsi 331 hektarı təşkil edir. Layihə 3000 ailə üçün nəzərdə tutulub. 2018-ci ildən C1 sektorunun satılmasına başlanılıb və istəyi olanlara seçim üçün 44 torpaq sahəsi təklif edilir. Bu il yaşayış evlərinin tikintisinə başlanılacaq və üzgüçülük hovuzu ilə bərabər 54 evin və 8 "townhouse"un tikintisi nəzərdə tutulur.

Qeyd olunan ərazidə layihə çərçivəsində qolf klub üçün lazımi infrastrukturun qurulmasına artıq 33 milyon xərclənib. Layihənin ümumi dəyəri isə 1 milyard avrodur.

Qeyd edək ki, Tbilisi meriyası və Qardabani bələdiyyəsinin dəstəyi ilə yollar çəkilib, qaz və elektrik enerjisi sistemləri, kanalizasiya və qolf meydançasının qurulması üçün lazımi suvarma sistemi yaradılıb.

## MARNEULİ AVROPA İDMAN HƏFTƏLİYİNƏ QATILIB

Marneuli Avropa İdman Həftəliyinə qatılıb. Tədbirin açılışı sentyabrın 23-ü Marneuli şəhərinin mərkəzi meydanında reqbi festivalı ilə baş tutub.

Açılış mərasiminə parlamentin deputatları Tamaz Naveriani və Ruslan Hacıyev, Marneuli bələdiyyəsinin mer vəzifəsini icra edən Zaur Tabatadze, sakrebulo sədrinin müavini Mamuka Naveriani, yerli hakimiyyətin digər rəhbər şəxsləri və əməkdaşları iştirak ediblər.

Festival çərçivəsində turnirdə iştirak edən komandalar xüsusi kubok və medallarla mükafatlandırılıblar.

Qeyd etmək lazımdır ki, Marneulidə idman həftəliyi sentyabrın 23-dən 30-dək davam edib. Bu müddət ərzində bələdiyyədə müxtəlif idman tədbirləri keçirilib.

İdman həftəliyi yerli hakimiyyətin qərarı ilə xeyriyyə xarakteri daşıyıb. İdman tədbirləri çərçivəsində toplanan məbləğ xərçəng xəstəliyindən əziyyət çəkən Marneuli sakini Teona Bendelianinin müalicəsi üçün verilib.

## "MİNİLLİYİN ÇAĞIRIŞI FONDU" TƏRƏFİNDƏN BƏRPA OLUNAN QARDABANİ 4 SAYLI İCTİMAİ MƏKTƏBİNİN TƏNTƏNƏLİ AÇILIŞI OLUB

"Minilliyin Çağırışı Fondu" tərəfindən bərpa edilmiş Qardabani şəhərinin 4 saylı ictimai məktəbinin açılışını Gürcüstanın təhsil, elm, mədəniyyət və idman nazirinin müavini, "Minilliyin Çağırışı Fondu"nun icraçı direktoru, ABŞ-ın Gürcüstandakı səfiri vəzifəsini yerinə yetirən şəxs və ABŞ hökumətinin "Minilliyin çağırışı" korporasiyası (Millennium Challenge Corporation) əməliyyatının icraçı direktoru edib.

Açılış mərasimində sakrebulo sədri Tariel Canxoteli, Qardabani meri Ramaz Budağaşvili, majoritar deputat Savalan Mirzəyev, Kvemo Kartli qubernatoru Şota Rexviaşvili və yerli özünüidarəetmənin digər vəzifəli şəxsləri iştirak ediblər.

Qardabani bələdiyyəsinin sakrebulosunun mətbuat xidmətinin məlumatına əsasən, "Minilliyin Çağırışı Fondu" tərəfindən ictimai məktəblərin bərpası çərçivəsində 58 məktəbdə tam bərpa işləri həyata keçirilib və məktəblər təbiətşünaslıq laboratoriyaları ilə təchiz olunub. Həmçinin Qardabani bələdiyyəsində 3 məktəbdə tam bərpa işləri aparılıb. Layihə çərçivəsində məktəblər müasir standartlara uyğun infrastrukturla təchiz olunublar. Təbiətşünaslıq fənləri üçün ayrı kabinetlər, kompüter laboratoriyası, idman zalları və tədris otaqları qurulub.



Ümumilikdə Kvemo Kartlidə 10-dan artıq məktəbdə bərpa işləri aparılıb. İctimai məktəblərin bərpasını ABŞ hökuməti "Minilliyin Çağırışı" korporasiyasının ikinci 140 milyon dollarlıq qrantı ilə maliyyələşdirir. Ümumilikdə ictimai məktəblərin bərpasına 54 milyon ABŞ dollarından çox məbləğ ayrılıb.

## QARDABANİ BƏLƏDİYYƏSİNİN MUXRAN-TELETİ KƏNDİNDƏ YOLUN BƏRPASI İŞLƏRİ HƏYATA KEÇİRİLİR

Qardabani bələdiyyəsinin Muxran-Teleti kəndində 324,699 lari dəyərində yol bərpası işləri həyata keçirilir.

Qardabani meriyasının mətbuat xidmətinin məlumatına görə, indiki mərhələdə 1176 metr yolun mövcud qatının çəkilməsi işlərini MMC "İberi" şirkəti həyata keçirir.

"Qeyd olunan yolun bərpa işləri son 25 il ərzində həyata keçirilməyib. Bu isə yolda hərəkət etməyə problem yaradırdı. Əhalinin istəyini nəzərə alaraq Qardabani meriyası yolun təmirini 2018-ci ilin büdcəsində qeydə alıb", – meriyadan bildiriblər.

Tender sənədlərinə əsasən, yolun örtük qatının təmiri cari ilin 19 oktyabrında başa çatacaq.

## SOSİAL MÜDAFİƏSİZ UŞAQLAR ÜÇÜN İNGİLİS DİLİNİN TƏDRİS PROQRAMI

Amerika təşkilatı "PH International" və "Mülki Məşğulluq Mərkəzləri Şəbəkəsi" ABŞ Dövlət Departamentinin maddi dəstəyi ilə sosial müdafiəsiz və ehtiyacı olan ailələr üçün "İngilis dili tədrisi əlçatanlığına dair təqaüd proqramı"na (English Access Microscholarship Program) başlayır.

Proqramda 14-18 yaşa qədər yeniyetmələr iştirak edə bilərlər. Onlar test nəticəsində seçiləcəklər.

Layihə Gürcüstanın Kutaisi, Poti, Ambrolauri, Ozurgeti, Telavi, Batumi, Mestiya, Qori, Kazbeqi, Zuqdidi, Axalkalaki, Ninotsminda, Marneuli, Duşeti, Saqareco, Rustavi, Axaltsixe regionlarında və Birkiani kəndində həyata keçirilir.

Hər şəhərdən 25 yeniyetmə seçiləcək və əvvəlcədən keçirilmiş testləşdirmə əsasında 2 qrupa bölünəcəklər. Hər qrupda iştirakçı sayı 13 nəfərdən artıq olmayacaq.

Proqram iştirakçılarına həftə ərzində ingilis dilinə dair üç dəfə iki saatlıq dərs keçiriləcək. Dərs məktəb saatlarında keçirilməyəcək.

"Proqram sosial müdafiəsiz və ehtiyacı olan ailələrin yeniyetmələrinə ingilis dilinin tədrisini əlçatan etmək məqsədi daşıyır. Bundan əlavə, uşaqlar ingilis dilini öyrəndikdə, eləcə də Amerika mədəniyyətini və ənənlərini də öyrənəcəklər, lider xüsusiyyətlərini inkişaf etdirəcəklər", - deyilir bəyanatda.

Proqram iki illikdir və 4 tədris semestrini nəzərdə tutur.

Birinci semestr: oktyabr-dekabr 2018-ci il;

İkinci semestr: yanvar-iyun 2019-cu il;

Üçüncü semestr: sentyabr-dekabr 2019-cu il;

Dördüncü semestr: yanvar-iyun 2020-ci il;

Müraciətlərin son qəbul müddəti 7 oktyabra qədərdir.

## MARNEULİ UŞAQ BAĞÇALARINDA "JUDO-KİDS" LAYİHƏSİ DAVAM EDİR



Avropa İdmanı Həftəliyi çərçivəsində Marneuli bələdiyyəsinin sakrebulosunun sədr müavini Mamuka Naveriani meriya və sakrebulonun digər rəhbər şəxsləri ilə birlikdə Marneuli şəhər 3 saylı, Tsereteli və Qızılhacılı kənd uşaq bağçalarına baş çəkib. Sözü gedən bağçalarda davam edən "Judo-kids" layihəsinin yeniyetmələrinin master-klaslarında iştirak edib.

Qeyd etmək lazımdır ki, hazırkı mərhələdə yerli özünüidarəetmə və Cüdo Federasiyasının birgə əməkdaşlığı nəticəsində yeniyetmələr üçün altı uşaq bağçasında tamamilə pulsuz cüdo dərnəkləri fəaliyyət göstərir. Dərnəklərdə 200 nəfər uşaq məşq edir.

Sözü gedən layihə 3 yaşdan başlayaraq uşaqların cüdo idman növünü mənimsəmələrini nəzərdə tutur. Bağça yeniyetmələrinə cüdo fəndlərini oyunlar ilə başa salırlar. Məqsəd isə uşaqlarda idmana sevgini artırmaqdır.

## TAMARİSİ KƏNDİNDƏKİ ALMAN ABİDƏLƏRİ İLƏ BAĞLI GÖRÜŞ KEÇİRİLİB

Marneuli meriyasında bələdiyyənin rəhbər şəxsləri və Cənubi Qafqazda Alman Mədəni Abidələrinin Mühafizəsi İttifaqının nümayəndələri arasında işgüzar görüş keçirilib.

Tərəflər Tamarisidə turizm potensialının inkişafı məsələsini, eyni zamanda Tamarisi kəndində alman mədəni abidələrinin mühafizəsi, qorunması mövzusunu və alman mədəni abidələrinin təbliğatı məqsədi ilə hazırlanmış layihəni müzakirə ediblər.

Görüşdə kəndin tarixi hissəsində alman tərəfdaşlığının dəstəyi ilə ictimai funksiya daşıyacaq və yerli sakinlər üçün faydalı olacaq alman yaşayış evlərinin alınması layihəsinə böyük diqqət ayrılıb.

Tədbirdə Tamarisinin tarixi mərkəzinə çıxan yola Traubenberqin adının verilməsi müzakirə olunub. İşgüzar görüşdə tərəflər müzakirəyə qoyulan məsələlər barədə öz fikirlərini irəli sürərək ortaq məxrəcə gələrək,



gələcək planların həyata keçirilməsi məqsədi ilə qarşılıqlı əməkdaşlığa hazır olduqlarını bildiriblər.

## MARNEULİNİN MOLLAOĞLU KƏNDİNDƏ YENİ MƏRKƏZ AÇILIB

Türkiyənin Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) dəstəyi ilə "Təhsil və sevgi xilas edəcək" layihəsi çərçivəsində yerli əhalinin maarif və mədəni həyatı üçün böyük əhəmiyyət daşıyan mədəniyyət mərkəzi açılıb.

Açılış mərasimində Gürcüstan parlamentinin deputatı Ruslan Hacıyev, Marneuli bələdiyyəsinin mer vəzifəsini yerinə yetirən Zaur Tabatadze, Sakrebulo sədrinin müavini Mamuka Naveriani, Türkiyə Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) nümayəndələri, yerli sakinlər, şagirdlər və qonaqlar iştirak ediblər. Mərkəzdə dil və kompüter kursları, həmçinin gənclərin istifadə etməsi üçün kitabxana da fəaliyyət göstərəcək.

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

30 SENTYABR
2018-Cİ İL
№015 (74`)

## NƏRİMAN NƏRİMANOVA HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLİB



Sentyabrın 19-u Gürcüstanın Marneuli rayonunda Azərbaycanın görkəmli dövlət xadimi və ədibi Nəriman Nərimanovun həyat və yaradıcılığının təbliğinə həsr olunan görüş keçirilib.

Tədbir Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin (SOCAR) Gürcüstan nümayəndəliyinin təşkilatı dəstəyi ilə baş tutub.

Görüşdən öncə Nəriman Nərimanovun Bakıdakı Ev Muzeyinin direktoru Kamilə Hüseynova, Azərbaycanın Gürcüstandakı səfirliyinin əməkdaşı Rəhim Rəhimzadə, azərbaycanlı ziyalılar və gənclər N.Nərimanovun Marneulidəki büstünü ziyarət edərək önünə gül dəstələri qoyublar.

"Çay evi"ndə keçirilən tədbirdə çıxış edən iqtisadiyyat üzrə fəlsəfə doktoru, gənc fəal Aygül İsayeva bildirib ki, əsas məqsəd N.Nərimanovun gənclər arasında düzgün və tarixi faktlar əsasında tanıdılmasıdır: "Nəriman Nərimanovun həyat və fəaliyyəti Gürcüstanla sıx bağlı olub və o, həmişə bu ölkədə xüsusi hörmət və ehtiramla yad edilib. Onun Gürcüstanda böyük xidmətləri olub və Nəriman Nərimanov iki xalq arasında dostluq simvolu kimi tanıdılmalıdır. Azərbaycanlı gənclər və Gürcüstan ictimaiyyəti arasında Nəriman Nərimanovun olduğu kimi təbliğ olunmasına böyük ehtiyac var. Ədibin tanıdılması üçün onun əsərləri gürcü dilinə tərcümə olunmalıdır".

Nəriman Nərimanovun Bakıdakı Ev Muzeyinin direktoru Kamilə Hüseynova isə bildirib ki, görkəmli dövlət xadimi və yazıçının zəngin irsinin gənclər arasında tanıdılmasının böyük əhəmiyyəti var: "Gənclər Nəriman Nərimanovun yaradıcılığı, onun haqqında tədqiqat işləri ilə yaxından tanış olmalıdırlar. Tbilisidəki böyük ədibin Xatirə Muzeyinin zəngin fondu var. Məktəblilər və gənclər Nəriman Nərimanovun həyat və yaradıcılığı ilə tanış olmaq üçün muzeyə baş çəkməlidirlər. Bu işdə müəllimlərin üzərinə böyük məsuliyyət düşür".

K.Hüseynova qeyd edib ki, 2020-ci ildə N.Nərimanovun anadan olmasının 150 illiyi ilə bağlı Gürcüstanda da tədbirlərin keçirilməsi planlaşdırılır.

"SOCAR Georgia Gas" şirkətinin direktoru Azər Məmmədov da N.Nərimanovun Gürcüstan azərbaycanlıları arasında tanıdılmasının vacib olduğunu qeyd edib: "Nəriman Nərimanovu tanımaq yaşadığı yerdən asılı olmayaraq hər bir azərbaycanlının mənəvi borcudur. Onun Gürcüstanda tanıdılması üçün gələcəkdə belə görüşlər daha geniş formatda keçirilməlidir".

A.Məmmədov atası, N.Nərimanovun ilk tədqiqatçısı olan Vəli Məmmədovdan da söz açıb. O, atasının N.Nərimanovun həyatı və irsinə dair zəngin materialları necə topladığının şahidi olduğunu vurğulayıb.

Görüşdə N.Nərimanovun Gürcüstanda tanıdılması, adının əbədiləşdirilməsi ilə bağlı təkliflər səsləndirilib və onların ətrafında fikir mübadiləsi aparılıb.

Sonda N.Nərimanovun Bakıdakı Ev Muzeyinin adından Marneuli "Çay evi"nə üzərində böyük dövlət xadimi və ədibin şəkli olan xalça hədiyyə olunub.

## QARDABANİLİ CÜDOCU DÜNYA ÇEMPİONU OLUB



Qardabani sakini Quram Tuşişvili Bakıda keçirilən cüdo üzrə dünya çempionatının qalibi olub. Q.Tuşişvili finalda Azərbaycanı təmsil edən cüdoçu Uşanqo Kokauri ilə qarşılaşıb və görüşün başa çatmasına 4 saniyə qalmış rəqibini ipponla məğlub edib.

Quram Tuşişvili qeyd olunan turnirdə qızıl medal qazanan ilk gürcü cüdoçudur. 23 yaşlı cüdoçunun karyerasında bu, dünya çempionluğunda ilk qızıl medaldır.

Xatırladaq ki, Q.Tuşişvili ikinci dairədə rumınyalı Daniel Nateyanı məğlub edib, sonra ukraynalı İakiv Xamoya qalib gəlib. Dörddəbir finalda isə hollandiyalı Roy Meyeri əlavə edilmiş vaxtda məğlub edərək yarımfinala çıxıb. Yarımfinalda monqol Durenbaiar Ulzibaiara qalib gəlib. Qeyd edək ki, Quram Tuşişvili bütün görüşləri ipponla qazanıb.

## GÜRCÜSTANDAN MÜALİCƏ VASİTƏLƏRİNİN İXRACI AZALIB

Cari ilin yanvar-avqust aylarında Gürcüstandan müalicə vasitələrinin ixracı 0,8 milyon dollar dəyərində azalıb.

Bu haqda məlumatı Milli Statistika Xidməti yayımlayıb.

Xidmətin məlumatına görə, cari ilin ilk səkkiz ayında qeyd olunan əmlak qrupunun ixracı 91,7 milyon dollar təşkil edib. Ötən ilin analoji dövründə bu göstərici 92,5 milyon dollar idi.

Qeyd edək ki, cari ilin yanvar-avqust aylarında qeyd olunan əmlak qrupu ən böyük ixrac qruplarının onluğunda 5-ci yerdədir və onun hissəsi ümumi ixracda 4,3% təşkil edib.

## AVQUST AYINDA PUL KÖÇÜRMƏLƏRİNİN HƏCMİ 13,9 MİLYON DOLLAR ARTIB



2018-ci ilin avqust ayında ölkəyə daxil olan pul göçürmələrinin miqdarı 135,6 milyon ABŞ dolları (343,7 milyon lari) təşkil edib. Bu isə 2017-ci ilin avqust ayındakı analoji göstəricilərlə müqayisədə 11,4 faiz (13,9 milyon ABŞ dolları) çoxdur.

Xaricdən Gürcüstana pul köçürmələrinin 93,8 faizi 17 böyük donor ölkənin payına düşür.

2018-ci ilin avqust ayında ən çox pul köçürmələri Rusiyadan olub (41.5 milyon ABŞ dolları). İkinci yeri İtaliya (16,2 milyon ABŞ dolları) tutur . 3-cü yerdə isə ABŞ-dır (14,9 milyon dollar). 4-cü və 5-ci yerləri İsrail və Yunanıstan tutur.

2018-ci ilin avqust ayında Gürcüstandan xaricə 18,9 milyon ABŞ dolları (48,0 milyon lari) göndərilib. Ötən ilin avqust ayında isə 19,4 milyon ABŞ dolları (46,5 milyon lari) göndərilib.

## AVQUST AYINDA KOMMERSİYA BANKLARININ GƏLİRİ 7,028 MİLYON LARİ DƏYƏRİNDƏ ARTIB




2018-ci ilin avqust ayına olan göstəricilərə əsasən, kommersiya banklarının gəliri ötən ilin analoji dövrü ilə müqayisədə 7,028 milyon lari dəyərində artıb.

Hesabat dövründə bankların təmiz gəliri 48,928 milyon larini təşkil edib. 2017-ci ilin avqust ayında isə qeyd olunan göstərici 41,900 milyon lari olub.

Belə ki, cari ilin avqust ayında bankların gəliri 359,470 milyon lari, xərcləri isə 305,894 milyon larini təşkil edib. Bundan əlavə, 2018-ci ilin avqustunda kommersiya bankları tərəfindən cərimələrdən gələn gəlir 7,415 milyon lari olub.

Məzənnənin alqı-satqısı əməliyyatından əldə olunan gəlir/zərər 13,773 milyon larini təşkil edib. Belə ki, cari ilin avqustunda banklar göstərilən xidmətlərdən 29,212 milyon lari dəyərində gəlir əldə ediblər.

Milli Bankın göstəricilərinə əsasən, avqust ayında banklar 2,408 milyon lari dəyərində gəlirin vergisini ödəyiblər. Ötən il kommersiya banklarının təmiz gəliri 869,798 larini təşkil edib. 2016-cı ildə isə bu göstərici 679,101 milyon lari idi.

## QADAĞAN OLUNMUŞ YERLƏRDƏ TÜTÜN ÇƏKMƏ FAKTI İLƏ BAĞLI QANUN POZUNTUSUNU ONLAYN REJİMDƏ QEYDƏ ALA BİLƏCƏK MOBİL APLİKASİYA YARADILIR



Vətəndaşların qadağan olunmuş yerlərdə siqaret çəkmə faktına dair qanun pozuntusunu onlayn rejimdə qeydə ala biləcək mobil aplikasiya yaradılacaq. Bu haqda səhiyyə nazirinin müavini Maia Laqvilava bildirib. Onun izahatına görə, aplikasiya istifadəçisi qanun pozuntusu faktının şəklini çəkib aplikasiya vasitəsi ilə sistemə yükləyəcək. Daxili İşlər Nazirliyi isə operativ rejimdə buna rekasiya göstərəcək.

"Daxili İşlər Nazirliyi ilə birgə çalışmalar nəticəsində mobil aplikasiyanın yaradılması planlaşdırılır. Aplikasiya vasitəsi ilə hər hansı hüquq pozuntusu faktının şəkilini çəkməklə, sonra şəkli aplikasiyaya yükləməklə qanun pozuntusunu qeydə almaq mümkün olacaq. İstifadəçi şəkil çəkəcək, aplikasiyaya yükləyəcək və DİN buna reaksiya göstərəcək. Aplikasiya artıq hazırlanır, ancaq istifadəyə verilmə vaxtı hələ məlum deyil", - deyə M.Laqvilava bildirib.

**Təsisçi:**
**"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"**

**Redaktor:** Azər Musaoğlu
**Yayım Direktoru:** Hacı Bəkiroğlu
**Qrafik dizayn:** Elsevər Əhmədov

***ÜNVAN:*** Qardabani şəh. Kolxoz küç, 4
***TEL:*** *(+995) 555 96 18 68*
*599 54 12 92*
***EMAİL:*** *yeni_yol@mail.ru*

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.